Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Bakının azad edilməsi: Azərbaycan Xalq Cümhuriyyəti dövrünün zirvəsi

**15 sentyabr - Qafqaz İslam Ordusunun Azərbaycanı daşnaklardan azad etməsinin 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2018**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Bakının azad edilməsi: Azərbaycan Xalq Cümhuriyyəti dövrünün zirvəsi:** 15 sentyabr – Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnaklardan azad edilməsinin 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2018. - 40 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Metodik vəsaitdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə XX əsr Azərbaycan Milli İstiqlal Mübarizəsinin ən mühüm hadisələrindən olan Bakının Qurtuluşunda Qafqaz İslam Ordusunun iştirakından, həmçinin Bakının Qurtuluşunun təbliği ilə bağlı uşaq kitabxanaları və MKS-lərdə müvafiq tədbirlərin keçirilməsinə kömək məqsədilə tövsiyələr verilmişdir.

Metodik vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Vəsaitin "Giriş" hissəsində Qafqaz İslam Ordusunun yaranmasından, türk əsgərlərinin köməkliyi ilə Bakının azad edilməsindən söhbət açılır. Vəsaitin ikinci hissəsində yubileylə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

Metodik vəsaitdən uşaq, məktəb, gimnaziya, lisey, kollec, kütləvi kitabxanaların kitabxanaçıları istifadə edə bilər.

## Giriş

Bu il müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının və Cümhuriyyət dövründə 26 iyunda yaranmış ilk ordumuzun, bu orduya türk əsgərlərinin köməkliyi ilə sentyabrın 15-də Bakının yadelli düşmənlərdən azad edilməsininin yüz illiyi tamam olur. Uzun illər bu tarixlər təqvimdə qeyd olunmayıb. Yalnız 1998-ci il Heydər Əliyevin fərmanı ilə 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü kimi yenidən təqvimə daxil olub.

Xalqımız əsrlər boyu özünün azadlıq arzusu ilə yaşamış, milli azadlığı, milli istiqlalı uğrunda mübarizə aparmışdır. Xalqımızın bu arzusu 1918-ci ilin mayın 28-i gerçək oldu. Belə ki, 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Azərbaycan Cümhuriyyətinin yaradılması və milli dövlət quruculuğunun bərqərar edilməsi onun suverenliyini təmin etmiş, tariximizin formalaşmasında müstəsna rol oynamışdır. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirib: Azərbaycanın ilk Parlamenti və Hökumətini təşkil etdi, ölkənin sərhədlərini müəyyənləşdirdi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün müstəsna əhəmiyyətli işlər görüldü.

Yüz il öncə 26 iyun Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası ilk milli ordu birləşməsinin təşkili ilə bağlı qərar qəbul etdi. Müstəqil Azərbaycanın ilk müstəqil ordusu yaradıldı. Keçmiş çar ordusunda general olan Əliağa Şıxlinskinin başçılığı

ilə milli ordunun əsası qoyuldu. Bu ordu 23 ay ömür sürmüş Cümhuriyyətlə bərabər addımladı. Milli Ordunun yaranması yeni qurulan milli dövlətin özünütəsdiq tarixinin ən önəmli mərhələsi oldu.

XX əsrin əvvəllərində yaranmış ordumuzun Milli İstiqlal Mübarizəsi tarixində baş verən ən böyük uğurlu hadisələrindən biri 15 sentyabrda Anadoludan gəlmiş türk əsgərlərinin köməyi ilə birgə Bakının düşməndən azad edilməsi oldu. Bu hadisə nəinki Azərbaycanın, həmçinin Türk xalqlarının milli qurtuluş hərəkatında da şanlı bir səhifə olmuşdur. Çünki bu qurtuluş, Bakının ağır günlərində Bakıda Azərbaycan türkləri ilə bir yerdə yaşayan türk xalqlarının da milli qurtuluş hərəkatıydı.

Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq, Türkiyə qardaş köməyini əsirgəməyərək, ölkəmizi tək qoymadı. 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də türklər qarşısına qoyduğu missiyanı uğurla başa çatdırmaqla, Bakını işğalçılardan təmizləyib Azərbaycanın müstəqil dövlətçiliyinə yol açdı. Azərbaycan xalqını darda qoymadı. Qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Bununla da 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara və özbaşınalığa son qoyuldu.

Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi və bir neçə ay sonra isə parlamentə demokratik qaydalar əsasında seçkilər keçirildi.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan - Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. 70 illik sovet hakimiyyəti illərində bu hadisənin məqsədyönlü olaraq yanlış kontekstdə izah olunmasına baxmayaraq, Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını heç vaxt unutmadı, onları qəlbində yaşatdı. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verdilər. Hər il Şəhidlər xiyabanında türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önündə anma mərasimi keçirilir. Aradan uzun illər keçməsinə baxmayaraq Türkiyə Ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayıb, unudulmayacaq da Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.

## Keçiriləcək tədbirlər

Müasir dövrdə kitabxanaların zövqlə tərtibatı oxucuların kitabxanaya cəlb edilməsinə təsir göstərən əsas amillərdən biridir. Kitabxanaya oxucu cəlb etmək üçün kitabxananın daxili tərtibatına xüsusi fikir verilməlidir. Bu reklamda kitabxananın xidmət xüsusiyyətləri, haqqında məlumatlar verilir. Xüsusən də hər hansı bir əlamətdar gün, yubilyar yazıçı və ya şair haqqında kitabxanada keçiriləcək tədbirlərin elanı vestibüldə vurulmuş məlumat lövhəsində yerləşdirilə bilər. Oxucuları Bakının azad edilməsinin 100 illiyi ərəfəsində kitabxanada keçiriləcək tədbirlərlə xəbərdar etmək üçün görüləcək işlər bu lövhədə öz əksini tapmalıdır. Azərbaycan Respublikasının dövlət rəmzləri – bayrağı, gerbi, himni kitabxanaya daxil olan hər kəsin, hər bir oxucunun diqqətini çəkə biləcəyi tərzdə yerləşdirilməlidir. Bakının qurtuluşunun 100 illiyinə həsr edilmiş kitablardan ibarət sərgi təşkil edilməlidir. Burada

həmçinin Nuru Paşa, Ənvər Paşa, Mürsəl Paşa haqqında fotolar və kitablardan ibarət guşələr təşkil etmək lazımdır. Kitabxanada Bakının xilaskar ordusunun generalı Nuru Paşa haqqında ("Bakının xilaskarı general Nuru Paşa", "Qafqaz İslam Ordusu Nuru Paşa ilə", "Xilaskar ordu generalı",) başlıqlı guşə hazırlaya bilərik. Bakının Qurtuluşu ilə bağlı "Bakının azad edilməsində Türk şəhidlərinin xatirəsi", "Bakı zəfərinin 100-cü ildönümü", "Bakı uğrunda mübarizə" və s. başlıqlı guşələrin təşkili də səmərəlidir.

Kitabxanalarda Bakının azad edilməsi ilə bağlı hazırlanmış tədbirlər planı əsasında il ərzində kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərə elektron resurslar, ənənəvi və virtual sərgilər, nəşr olunmuş kitabların sərgisi, yeni kitabların təqdimatı, elmi-praktik konfranslar, mühazirə, maarifləndirici layihə və tədbirlərin keçirilməsi, AXC üçün ucaldılmış abidələri ziyarət, AXC haqqında çəkilmiş filmlərə baxış, silsilə məqalələrin dövri nəşrlərdə dərc edilməsi və internet saytlarında yerləşdirilməsi, faktların, sənədlərin video görüntülər vasitəsilə nümayiş etdirilməsi, video çarxların nümayişi, reklam-poliqrafiya məhsullarının (buklet, flayer və s.) nəşri məqsədəuyğun olardı. İKT vasitəsilə virtual mütaliə etmək istəyənlər daha çoxdur. Ona görə də MKS-nin saytında yeni resursların yaradılması, səsli və digər elektron formatda kitablarla fondların zənginləşdirilməsi, KİV-də AXC-nin fəaliyyəti ilə bağlı maarifləndirici yazıların mütəmadi işıqlandırılması, çeşidli mədəni aksiyaların keçirilməsi məqsədəuyğun olardı.

# Kitab sərgisi


















♦ Kitabxananın saytında Qafqaz İslam Ordusu haqqında kitabxananın fondunda olan materiallar əsasında elektron məlumat bazasını hazırlamaq məqsədəuyğun olardı. Mənbələrdə qeyd edilmiş tarixi faktlara əsasən nəinki Bakının Azərbaycanın digər bölgələrinində azad edilməsi uğrunda döyüşlər gedirdi. Göyçayda, Kürdəmirdə, Ağsuda, Şamaxıda da erməni-bolşevik qüvvələrinə qarşı qanlı döyüşlər başlamışdı. Gedən qanlı döyüşlərdə 1200-dən çox Osmanlı və Azərbaycan türkünün şəhid olması nəticəsində, təkcə Bakı deyil, bütövlükdə Azərbaycan öz ərazi bütövlüyünü qoruyub saxlaya bilmişdir. Bu fədakarlıqlarına görə xalqımız şəhid olmuş türk əsgərlərini hələ 1918-1920-ci illərdə Xalq Cümhuriyyətinin mövcudluğu dövründə yüksək qiymətləndirmişdir. Bakının "Çəmbərəkənd" qəbiristanlığında türk şəhidlərinə abidə qoyulmasını belə nəzərdə tutulmuşdur. Lakin Bolşeviklərin hakimiyyətə gəlməsi bu işi reallaşmağa qoymamışdır. Lakin 1991-ci ildə Azərbaycan azadlığına yenidən qovuşandan sonra Bakının Qurtuluş tarixi yenidən dəyərləndirilmişdir. Tarixin sınağından çıxmış Azərbaycan-Türkiyə birliyi daha da möhkəmlənmişdir.

Həmçinin saytda Qafqaz İslam Ordusunun Azərbaycanda olarkən döyüşlər getmiş bölgələr haqqında məlumatlar da yerləşdirə bilərik.

## *Qafqaz İslam Ordusunun azad etdiyi Azərbaycan bölgələri*

### Gəncə

1918-ci il mayın 25-də Gəncəyə çatan Nuru Paşanı Gəncə əhalisi böyük təmtəraqla qarşılayır.

### Yevlax

Nuru Paşa ilk dəfə 1918-cilin mayın 24-də Qarabağdan Yevlaxa gəlmiş və böyük izdihamla qarşılanmışdır.

## Ağdaş

Nuru Paşa Ağdaş əhalisindən topladığı könüllülərə böyük inam bəslədiyini bildirmişdi.

## Göyçay

Azad edilməsi çox ağır şəraitdə keçdiyindən Nuru Paşa 5-ci Qafqaz firqəsinin qərargahının bura köçürülməsini vacib saydı.

## Ucar

Ucarın Müsüslü dəmiryol stansiyasında gedən ağır döyüşlərdə erməni quldur dəstələri türk qoşunlarına məğlub olduqlarını görərək bu dəmiryolla geriyə - Bakıya qayıtmağa məcbur oldular.

## Kürdəmir

Kürdəmir uğrunda gedən döyüşlərdə Biçeraxovun başçılıq etdiyi dəstə, daşnak qüvvələrinə kömək etsə də, könüllü qüvvələr də fədakarlıq göstərərək 1918-ci il iyulun 10-da Kürdəmiri azad etdilər.

## Hacıqabul

Hacıqabulun azad edilməsi də qanlı döyüşlərlə bitib. Burada yaşayan insanlar ata-babalarından eşitdikləri hadisələri, türk əsgərlərinin fədakarlığı haqqında bilgilərini yaddaşlarında bu gün də yaşadırlar. Hacıqabul həm də strateji əhəmiyyəti olan bir yer olub. Odur ki buranı “Bakının qapısı adladırırlar”.

## Ağsu

1918-ci ilin iyunun sonlarında Göyçay və Qaraməryəmdəki uğurlu döyüşlərdən sonra erməni hərbi qüvvələri Ağsuya sığışdılar. Qısa müddət ərzində buradakı yerli erməni Quldur dəstələri zərərsizləşdirildi. İyul ayında isə Nuru

Paşa Ağsu ətrafındakı döyüşlərə başçılıq etmək üçün buraya gəldi. İyulun 6-da düşmənə güclü zərbə vuruldu və onlar Ağsudan uzaqlaşmaq məcburiyyətində qaldılar.

## Şamaxı

Qafqaz İslam Ordusu qarşısında duran başlıca planlardan biri Şamaxının azad edilməsi idi. Şamaxıda isə bolşevik daşnakların böyük hərbi qüvvələri və oradakı yüzlərlə günahsız insanı qətlə yetirmişdilər. Nuru Paşa həmin dövrdə Mürsəl bəyə göndərdiyi teleqramda bildirirdi: "Şamaxının şərq və cənubundakı köylər kamilən islam və müsəlləhdirlər. Böylə bir hərəkətin düşməni məğlubiyyəti-qətiyyəyə uğradacığını təxmin edirəm".

1918-ci ilin iyulun 20-də Qafqaz İslam Ordusunun davamlı uğurlu döyüşlərdən sonra bolşevik – daşnak qüvvələri Şamaxıdan geri çəkilmək məcburiyyətində qaldılar.

## Qobustan

Qobustan ərazisindəki Acıdərə deyilən yerdə ciddi döyüşlər gedib. Türklərin də itki verdiyi bu ərazidə şəhid olan bir əsgərin məzarını isə qonşu kəndlərdəki əhali qoruyub saxlamışdır.

## Qobu

Bakının azad edilməsi üçün Qobudan başlanan döyüşlərdə 5-ci firqənin qərargahının məhz Qobuda yerləşdirilməsi nəzərdə tutulmuşdur. Nuru Paşanın hücumunun məhz Qobudan başlanması, dayanmadan burdan irəli gedilməsi nəzərdə tutulmuşdu.

## Güzdək

5-ci firqənin gərargahı Qobuda yerləşdirildikdən sonra Nuru Paşanın qərargahı isə Güzdəkdə yerləşdirildi. Nuru Paşa

Xocahəsən və xeyli yüksəklikdə olan Qurd qapısı istiqamətindən hücuma keçib düşmənə zərbə vurmaq qərarındaydı.

### Xocahəsən

Bakının lap yaxınlığında olan Xocahəsəndə Nuru Paşa sentyabr ayının 13-də Bakının azad edilməsi üçün əmr imzalamışdır.

### Biləcəri

1918-ci ildə Qafqaz İslam Ordusu həmin ərazini azad edərək Bakıya daxil olmuşdur.

### Bakı

1918-ci ilin sentyabr ayında Bakı Nuru Paşa və ordusunun fədakarlığı ilə düşməndən azad edilmişdir.

### *Azərbaycan Xalq Cümhuriyyəti Qurucuları Bakının Qurtuluşu haqqında*

**Məhəmməd Əmin Rəsulzadə** *(Azərbaycan Milli Şurasının sədri). Azərbaycan hökuməti rəisi Fətəli xan cənablarına.* Paytaxtımızın istirdadından (geri alınmasından) dolayı təhdi-idareyi alilərində bulunan hökumətimizi təbrik ilə Bakının yeni türk ellərini istixlas üçün sarsılmaz bir qəleyi-mətin olması ümidi ilə bütün arkadaşlarımla öpüşürsünüz.

**Fətəli Xan Xoyski** *(Azərbaycan Nazirlər şurasının sədri).* Qafqaz Müsəlman Ordusunun komandanı Nuru Paşaya! Xoşbəxtəm ki, xalqın adından Siz əlahəzrətlərinə, xeyirxah türk ordularına və Azərbaycan paytaxtını düşməndən azad edən inanılmış cəsur əsgərlərə təşəkkürümüzü çatdırıram.

**Nəsib bəy Yusifbəyli** *(Azərbaycan Nazirlər Şurasının sədri, Maarif naziri ).* Ey cəsur Türk qəhrəmanları! Sizə layiq bir söz vardır ki, onu da Bakının alınması münasibətilə Nuru Paşa həzrətlərinə Baş vəkilimiz yazmışdır. Ondan daha münasib bir təbir tapmadığımdan onu mən də təkrar edirəm və zənn edirəm ki, üç kəlmədən ibarət olan bu cümləni Azərbaycan durduqca hər bir hər bir azərbaycanlı türk qəlbində yaşayacaq və təkrar edəcəkdir: *Millət sizə minnətdardır.*

**Əlimərdan bəy Topçubaşov** (*Azərbaycan Parlamentinin sədri).* "Paşa həzrətləri" biz öz müttəfiqimiz və himayəçimiz olan Türkiyəyə Azərbaycanı müstəqil görmək istədiyinə görə Sizin şəxsinizdə necə təşəkkür etməyə söz tapa bilmirəm. Bu məsələnin həllindən bizim bütün gələcəyimiz asılıdır: Azərbaycan türklərinin mövcud olub-olmamağı asılıdır.

Türk sərkərdə və əsgərlərinin, dövlətimizin paytaxtı olan Bakının azad edilməsi uğrunda apardığı və uğurla başa çatdırdığı qəhrəmanlıq mübarizəsi bizi Azərbaycanın müstəqilliyini təminatına həmişəlik olaraq inandırır və arxayın edir. Bu mənada biz indi sakit ola bilərik.

**Məhəmməd Həsən Hacınski** *(Azərbaycanın Xarici İşlər Naziri).* Biz fikrimizi müəyyənləşdirmişik. Onlar yalnız müstəqil Azərbaycan hökumətinin qurulmasını istəyirlər. Onlar bizim işlərimizə qarışmaq istəmirlər.

**Həsən bəy Ağayev** *(Azərbaycan Parlamentinin müavini).* Möhtərəm deputatlar! Bugünkü bayramın nə qədər şərəfli, nə qədər tarixi olduğunu hər kəs düşünür və anlayır. Bu bayram münasibətilə Türklük və İslamlıq yolunda şəhid düşən türk igidlərini yad etmək üçün rica edirəm ki, cümləniz qiyam edəsiniz. Bu gün düz bir ildir ki, Bakı düşmənlər əlindən xilas olmuşdur.

♦ Kitabxanada Azərbaycan Xalq Cümhuriyyətinin təbliği ilə bağlı əvvəlcədən tədbirlər planı hazırlanmalıdır. Həm Cümhuriyyətin, həm də Bakının azad edilməsinin yubiley ilində keçiriləcək tədbirlərdə dövlət quruculuğu ənənələri, Xalq Cümhuriyyəti tariximizdə Bakının qurtuluşunda ordu quruculuğumuzun rolu və əhəmiyyəti ön plana çəkilməli, Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Respublikasının ordusunun bugünkü inkişaf mənzərəsi diqqətə çatdırılmalıdır.

Azərbaycan Demokratik Respublikasının yaranıb bərqərar olmasında və Bakının düşmənlərdən azad edilməsində, Azərbaycan ordusunun yaradılması və təkmilləşdirilməsində, böyük tarixi xidmətləri olan qəhrəman Qafqaz İslam Ordusunun xüsusi xidmətləri olduğundan tədbirlər planı hazırlanarkən aşağıdakı bəndlərin daxil edilməsi tövsiyə olunur:

1. Osmanlı dövləti ilə Xalq Cümhuriyyəti arasında imzalanan andlaşmanın əsas hissələrinin açılması ilə təbliğat işlərinin keçirilməsi;
2.Qafqaz İslam Ordusu şəhidlərinin siyahısı əsasında təbliğat işləri;
3. Türk şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün xalqımız tərəfindən görülən işlərin təbliği;
4. Qafqaz İslam Ordusunun hərəkət xəritəsi və əsasında keçirilən mühazirələrin təşkili;
5. Müəllif Nəsiman Yaqublunun “Qafqaz İslam Ordusu Azərbaycanda” kitabı əsasında Bakının xilası ilə bağlı yerli və xarici mətbuatda gedən yazıların, onlara həsr edilmiş bədii əsərlərin təbliği;
6. Nəşr edilməsinin 100 ili tamam olan “Azərbaycan” qəzetində çıxmış Bakının azad edilməsi haqqında məqalələrin təbliğatı.

Bundan başqa kitabxanalarda əvvəlcədən hazırlanmış tədbirlər planı əsasında il ərzində kütləvi tədbirin bütün formalarından istifadə edərək maarifləndirici şəkildə hazırlanmış elektron resurslar, ənənəvi və ya virtual sərgilər, nəşr olunmuş kitabların sərgisi, yeni kitabların təqdimatı, konfranslar, mühazirə, layihə və tədbirlərin keçirilə bilər.

Azərbaycan Tarix Muzeyində Qafqaz İslam Ordusuna aid əşyaların nümayişi vardır. Bu yöndə keçirilən tədbirlər sırasına uşaqlarla təşkil edilmiş ekskursiyada müvəffəqiyyətlə keçən təbliğat işlərindən olardı. Əşyalar haqqında virtual clb.az internet saytnının bölməsində məlumat da yerləşdirmək mümkündür. Həmçinin bu faktları kitabxananın uşaq jurnalı olan Göy Qurşağı jurnalının səhifələrində də işıqlandıra bilərik. Bir sözlə, kitabxanada çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə edərək kompleks kitabxana, biblioqrafiya xidmətləri göstərmək, ənənəvi və elektron xidmət növlərindən istifadə etməklə Azərbaycan Milli İstiqlal Mübarizəsinin ən möhtəşəm hadisələrindən biri olan Bakının azad edilməsinininin oxuculara, gənclərə təbliğ edilməlidir.

Son illər ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanlara dövlət tərəfindən daha çox diqqət artırılır. Görmə əngəlli uşaqları nəzərə alaraq, kitabxana həm əyani, həm virtual olaraq onlara xidmət göstərir. Onlara bu mövzuda məlumatların işıqlandırılmasında kitabxanaçı səsli olaraq kömək edə bilər.

Kitabxananın elektron məlumat bazasında Azərbaycan cümhuriyyətin fəaliyyəti, ordunun təşkili, Qafqaz İslam ordusunun Bakıya gəlməsi prosesi haqqında kitabxananın fondunda olan materiallar əsasında elektron məlumat bazasını hazırlamaqla oxucuları daha çox məlumatlandırmaq olar. F. Köçərli adına Uşaq Kitabxanasının biblioqrafiya şöbəsi dövri

mətbuat məqlələri əsasında “Məmməd Əmin Rəsulzadə”adlı baza hazırlamışdır. Məlumat bazası aşağdakı nümunə kimi də hazırlana bilər.

**Nümunə:**

- **Azərbaycan Xalq Cümhuriyyəti;**
- **Bakının Qurtuluşu – 100;**
- **Cümhuriyyət dövri mətbuatında Qafqaz İslam Ordusu;**
- **Cümhuriyyət ədəbiyyatında Qafqaz İslam Ordusu.**

Hazırda multimedia resursları, demək olar ki, bütün fəaliyyət istiqamətlərində istifadə olunduğundan onlarsız heç bir kitabxanada tədbir keçirilmir. Müxtəlif tədbirlərdə DVD, slayd təqdimatlar, musiqili kompakt disklər, müxtəlif növ informasiya mənbələrindən, o cümlədən qlobal internet şəbəkəsindən istifadənin təşkili tədbirləri daha maraqlı edir. İndi əhalinin daha çox hissəsinin sosial şəbəkələrdən fəal istifadə etdiyini nəzərə alsaq, kitabxanaçı da sosial şəbəkələrdə fəal olmalıdır. Kitabxanaçı Qafqaz ordusunun Bakıya gəlişinin təbliği üçün keçirilən tədbirlərin fotolarını, video çarxlarını kitabxananın saytında yerləşdirə bilər.

Əhalini qurtuluş hərəkatına aid müxtəlif sənədlərlə məlumatlandırmaq üçün kitabxananın saytında kitabxananın fondunda, müxtəlif dövlət arxivlərində, çoxsaylı sənədlər və fotomateriallardan ***“Bakının qurtuluşu – 100 il” adlı virtual sərgi*** hazırlamaq olar. Nümayiş etdirilən materialların təqdim edilməsi formasına görə virtual sərgilərdə də qısa formatda yalnız kitabın üz qabığı və biblioqrafik təsviri; standart formatda - kitabın üz qabığı, biblioqrafik məlumatlar, qısa annotasiyası; geniş formatda - standart formata əlavə olaraq, təqdim edilən

kitabdan qısa fraqment, kitabın tam və ya pdf versiyası isə video çarx kimi təqdim edilə bilər.

Nümunə:

- Ümumi məlumat;
- Milli Ordununun yaradılması;
- Xronologiya;
- Azərbaycanda yaradılması nəzərdə tutulan Qafqaz İslam Ordusunun quruluşu (mərhələlərlə);
- Qafqaz İslam Ordusunun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi (aparılan döyüşlər);
- Bakının azad edilməsi.

Qafqaz İslam Ordusunun Bakını azad etməsi haqqında tam məlumatın əks etdirən sərgidə kitablarla yanaşı, digər sənəd növlərinin – arxiv sənədləri, qəzet və jurnal məqalələrinin də nümayiş etdirilməsi tövsiyə olunur. Həmçinin 15 sentyabr Bakının qurtuluşunda iştirakı olan şəxsiyyətlər, Nuru Paşa haqqında deyilmiş Xalq Cümhuriyyəti xadimlərinin, görkəmli şəxlərin fikirlərinin yazılıb divardan asılması da məqsədəuyğun olardı. Aşağıda belə sitatlara nümunə təqdim edirik:

## Sitatlar

Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tamam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin – ölkəmizin müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli

Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik.

**Heydər Əliyev,**
*ümummilli lider*

Ey Gənclik!

Sənin öhdəndə böyük bir vəzifə var: Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı, onu min müşkilatla ucaldaraq dedi ki:

– Bir kərə yüksələn bayraq bir daha enməz!

Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə taxacaq və bu yolda ya qazı ya şəhid olacaqsan!

***

Tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır.

Siyasi üfüqdə qara buludlar görünən kimidir. Lakin bu qara buludlara qarşı Nurularımızın zülmətqovan nuru var!

***

Bu çətin vəziyyətdən milləti qurtaracaq yeganə bir çarə vardı: Türkiyə!

***

O qardaşmillət gələcək, bizi düşmən əlindən qurtaracaq! Xalqın bundan başqa bir ümidi qalmamışdı.

Bir kərə yüksələn bayraq, bir daha enməz!

***

Bakısız Azərbaycan - başsız bədəndir.

***

Bütün Azərbaycan xalqının çar-çeşmlə bəklədiyi ümidə tərcüman olan bu müraciətimizdə Türkiyə heyəti-mütəxəssisi həmən müvafiqət cavab verdi.

**Məhəmməd Əmin Rəsulzadə,**
*dövlət xadimi*

Şükürlər olsun ki, düşmənlər öz məramlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğlanları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olduqlarını bütün aləmin gözünə çarpdılar. Və bundan belə yüz illərlə başqalarının təhtitəzyiqində əzilən milyonlarla dindaş və millətdaşlarımıza böyük ümidlər bəxş etdilər.

**Ceyhun Hacıbəyli,**
*yazıçı, jurnalist*

Mən Bakını İstanbulda və İstanbulu Bakıda görüb özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm o qədər də qəmim yoxdur, dünyadan kam almış kimiyəm.

**Əhməd bəy Ağaoğlu,**
*ictimai xadim*

♦ *“Bakının azad edilməsi: Azərbaycan Xalq Cümhuriyyəti dövrünün zirvəsi”, “Heydər Əliyev və Azərbaycan Milli ordu quruculuğu”, “Müstəqil Azərbaycan Ordusu Xalq Cümhuriyyəti dövründə yaranmış ordumuzun varisidir”, “Milli ordumuzun yaranmasının kitabxanalarda təbliği”* və s. adlarda **konfranslar** keçirməklə oxucuları maarifləndirə bilərik.

Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur.

***I iştirakçı:*** Müstəqilliyini elan edən ADR-in paytaxt məsələsi gündəmə gəldi. Lakin o zaman Bakı işğal altında olduğundan milli hökumətin müvəqqəti olaraq Gəncədə fəaliyyətə başlaması barədə qərar qəbul edildi. Milli hökumətin ixtiyarında cəmi 600 nəfərlik hərbi qüvvənin olması Gəncəni işğalçılardan azad etməyə imkan vermədiyindən belə bir ağır vəziyyətdə Azərbaycan milli hökumətinin kömək istəyə biləcəyi yeganə dövlət Türkiyə oldu. Kömək məqsədilə Osmanlı dövləti Qafqaza bir ordu göndərmək qərarını alınca, Ənvər Paşa bu ordunun komandanlığına öz qardaşı Nurunu təyin edib, əvvəlcə ona diviziya generalı rütbəsi, sonra Paşa rütbəsi vermişdir. Bu təyinatdan sonra 1918-ci ilin martın 25-də Mosula, ordan Gəncəyə gələn Nuru Paşa burada və ətraf bölgələrdə təşkilatçılıq işlərinə başladı. Gördüyü işlərdən sonra onun Vəhib Paşaya yazdığı məktubunda artıq Gəncədə 600 nəfərlik bir hərbi birlik yarandığı qeyd edilirdi. Məktubda, ümumiyyətlə, Azərbaycanda milli bir ordu yaratmaq imkanının mövcud olduğu bildirilirdi. Lakin ordu təşkili üçün paltar, silah, cəbbəxana olmadığı məktubda qeyd edilib. Nuru Paşa ölkədən bu sahədə yardım edilməsini xahiş edirdi. Təşəkkül edəcək əsgərlərə komandalıq etmək üçün mümkün olduğu qədər müəllim, zabit və kiçik zabitin təşkilini rica edirdi.

1918-ci ildə iyunun 4-də Osmalı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanan müqavilənin 4-cü maddəsinə, Azərbaycan dövlətinin rəsmi müraciətinə əsasən Vəhib Paşa 1918-ci ilin iyunun 7-də Beşinci Qafqaz firqəsinin Qazax

üzərindən Gəncəyə göndərilməsi əmrini verdi. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim Əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı nəqliyyatı tənzim etmək üçün Batumdan Gəncəyə göndərildi. Batumda imzalanmış müqavilə əsasında 5-ci Qafqaz diviziyası iki qrup halında Gümrü və Qazax istiqamətində Qazaxa gəldi. Ehtiyac duyulan Qafqaz diviziyasının 1-ci qrup Diviziya qərargahı 147 zabit, 2812 əsgər, qidalanma üçün 698 heyvan daxil olmaqla təşkil edilmişdir. 2-ci qrupa isə 2763 əsgər, 668 heyvan 110 zabit, 24 səyyar xəstəxana, mətbəx daxil idi.

***II iştirakçı:*** 1918-ci ilin iyulundan Qafqaz İslam Ordusu artıq Bakının azad edilməsi istiqamətində hərəkətə keçmişdi. 1918-ci il sentyabrın 15-də Qurban bayramı günündə Bakı işğalçılardan azad edildi. Şəhər uğrunda döyüşlər heç də asan getmədi. Bəzi məlumatlara görə, bu döyüşlərdə mindən artıq türk əsgəri və zabiti həlak oldu. Yerli əhalidən isə şəhidlərin sayı 5 mindən artıq idi.

Tarixçi alim M.Qasımlının sözlərinə görə, Qafqaz İslam Ordusu Bakının mühasirəsini çox dəqiqliklə həyata keçirmişdi: "Hətta ingilis qoşunlarının komandanı Denstervil xatirələrində etiraf edirdi ki, türk topçuları çox dəqiqliklə atəş açırdılar. Onların atəşi Bakıdakı memarlıq abidələrinin heç birinə ziyan vurmadı". Qardaş Türkiyənin hərbi dəstəyi ilə Bakının azad edilməsi Azərbaycan tarixinə daha bir zəfər gününün yazılması demək idi. Bu, eyni zamanda dahi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir!" fikrinin əyani təsdiqi idi. Bakının azad edilməsindən iki gün sonra Azərbaycan hökuməti müvəqqəti paytaxt olan Gəncədən Bakıya köçürüldü. Bu isə ölkədə tamamilə yeni bir şərait yaratdı. Bundan sonra Azərbaycan hökuməti özünün elm, mədəniyyət, incəsənət mərkəzinə qovuşmuş oldu.

***III iştirakçı:*** 1918-ci il 26 iyun tarixində diviziya statusunda hərbi korpusun yaradılması barədə qərar qəbul edilmiş və Azərbaycanda milli ordunun təməli qoyulmuşdur. Avqustun 1-də isə AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabr ayının 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski isə nazir müavini təyin edilmişdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə ölkənin müstəqilliyinə və milli mənafelərə xidmət edən ordu quruculuğu yarımçıq qaldı. 1920-ci il aprel işğalından dərhal sonra Cümhuriyyət ordusunun hissələri ləğv edildi, milli ordu üçün yaradılmış maddi-texniki baza isə talan olundu. Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti Ordu yaradılması haqqında qanun qəbul etmişdir.

Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü haqqında" 22 may 1998ci il tarixli fərmanına əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli qərarı ilə "Əlahiddə Azərbaycan Korpusu"nun təşkil olunduğu əsas götürülərək hər ilin 26 iyununu Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması günü kimi qeyd etmək qərara alınmış və həmin gündən bayram kimi qeyd edilir.

Çətin vəziyyətdən sonra yenidən bərpa edilmiş Azərbaycan Milli Ordusu haqqında ümummilli lider Heydər Əliyev imzaladığı 22 may 1998-ci il sərəncamından sonra bu sahədə güclü kadr hazırlığı lazım idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı.

***IV iştirakçı:*** Ulu öndərin çıxışlarında Azərbaycan xalqının hərb tarixinə qızıl hərflərlə yazılmış Azərbaycan əsgərləri ilə yanaşı, türk ordusunun adları qürurla çəkilir və onların qəhrəmanlıqları müasirlərimizə nümunə göstərilirdi. Onun istinad etdiyi belə sərkərdələr arasında Cümhuriyyət generalları olan ilk ordu generalımız Əliağa Şıxlinski və Azərbaycana gəlmiş türk ordusunun başçısı Nuru Paşa xüsusi yer tuturdu. Bu generalların hər ikisi hərb tariximizdə parlaq simalardır və onlar özlərindən sonra çox dəyərli bir hərbi irs miras qoyub getmişlər. Qeyd etmək lazımdır ki, bu generallar azərbaycanlılar arasında nizami hərbin zirvəsi, yeni bir məktəbin yaradıcılarıdır, ən başlıcası isə müstəqil Azərbaycanın milli ordusunun təşkilatçılarıdır. Bu generalların daha böyük uğurları Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil milli ordusunun formalaşdırılması sahəsindəki xidmətləri ilə bağlıdır. Onlar öz bilik və təcrübələri, təşəbbüskarlıq və yorulmazlıqları ilə bir-birlərini tamamlayırdılar. Çox qısa zaman kəsiyində Cümhuriyyətin ərazi bütövlüyünü qorumağa qadir olacaq müstəqil ordunun təşkilatlandırılması da bu iki böyük generalın tarixi xidmətidir. Bu dahi insanlar gələcək üçün də əhəmiyyətini itirməyəcək çox zəngin bir irs qoyub getmişlər və həyatını hərb işinə həsr edən hər bir azərbaycanlı zabit tərəfindən bu irsin dərindən öyrənilməsinə ehtiyac var. Ulu öndər Heydər Əliyevin bu fikrindən doğan qənaət belədir ki, hərbi biliyi, təcrübəsi, peşəkarlığı ilə seçilən Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski kimi sərkərdələr illər keçdikcə Azərbaycanda hərbi işə sədaqət nümunəsi olaraq seçiləcəklər və onlardan miras qalmış hərbi irs həmişə öyrənilməyə layiqdir.

♦ Kitabxanada mövzu ilə bağlı yuxarı yaş qrup oxucuları arasında **anket-sorğu** da keçirilə bilər. Oxucular arasında keçirilən anket-sorğularında suallar tərtib edilməli, anketin

hansı yaş qrupu arasında keçirilməsi də nəzərə alınmalıdır. Anket-sorğu oxucular arasında əvvəlcədən paylanılır və mahiyyəti onlara izah edilir, sonda anket-sorğunun nəticələri ətrafında fikir mübadiləsi aparılır.

**Anket-sorğuya nümunə:**

1. Azərbaycan Respublikasının Silahlı Qüvvələr Gününün keçirilməsi nə vaxt qərara alınmışdır?
   a) 15 iyun 2001
   **b) 26 iyun 1998**
   c) 28 may 1988

2. Azərbaycan ordusuna kömək məqsədilə qardaş Türkiyədən göndərilmiş ordunun başında kim dururdu?
   **a) Nuru Paşa**
   b) Ənvər Paşa
   c) Tələt Paşa

3. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətinin qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu nə vaxt yaradıldı?
   **a) 1918-ci il 26 iyun**
   b) 1992-ci il 26 iyun
   c) 1918-ci il 15 may

4. Xalq Cümhuriyyəti tərəfindən yaranan ilk ordumuza dəstəyi ilk hansı dövlət verib?
   a) Gürcüstan
   b) Rusiya
   **c) Türkiyə**

7. Türk Ordusunun köməyi ilə Bakı yadellilərdən nə vaxt azad edildi?

a) **1918 – ci il 15 sentyabr**
b) 1920 –ci  il 15 oktyabr
c) 1920-ci il 18 oktyabr

8. Bu il Qafqaz İslam Ordusunun Bakını azad etməsinin neçə illiyi tamam olur?
a) **100 illiyi**
b) 50 illiyi
c) 30 illiyi

9. Nuru Paşa ilk əvvəl hansı bölgəyə çatdı?
a) Yevlaxa
**b) Gəncə**
c) Ağdaş

10. Gəncədən sonra hansı rayonlar azad edildi?
**a) Yevlax, Ağdaş, Göyçay**
b) Ucar, Kürdəmir, Hacıqabul
c) Ağsu, Şamaxı, Qobustan

11. Bakı uğrunda mübarizədə nə qədər türk əsgəri şəhid olmuşdur?
a) 100
**b) 1130**
c) 1500

12. Azərbaycan yazıçı və şairlərindən hansı şairlər Türklərin Bakını azad etməsinə əsərlər həsr etmişdir?
**a) Əhməd Cavad, Salman Mümtaz, Abdulla Şaiq**
b) Bəxtiyar Vahabzadə, Nigar Rəfibəyli, Abdulla Şaiq
c) Ümmügülsüm, Bəxtiyar Vahabzadə. Cabir Novruz

13. Atıldı dağlardan zəfər topları,
Yürüdü iləri əsgər, Bismillah!

O Xan sarayında çiçəkli bir qız,

Bəkliyor bizlərdən zəfər, Bismillah! misrası Əhməd Cavadın hansı şeirindəndir?

a) Ey əsgər
**b) Bismillah**
c) Türkün nəğməsi

14. "Bakısız Azərbaycan – başsız bədəndir" fikirləri kimə məxsusdur?

a) Nəsib bəy Yusifbəyli
b) Məhəmməd Hadi
**c) Məhəmməd Əmin Rəsulzadə**

15. Çırpınırdı qara dəniz,
Baxıb türkün bayrağına.
"Ah" deyərdin heç ölməzdim,
Düşə bilsəm ayağına! nəğməsi kimə məxsusdur?

a) Məhəmməd Hadi
**b) Əhməd Cavad**
c) Abdulla Şaiq

♦ Kitabxanada həm Milli Ordumuzun yaranmasının, həm də Bakının azad edilməsinin 100 illiyi ilə bağlı keçiriləcək tədbirlərdən biri də **söhbət** ola bilər. Söhbəti AXC-dövründə Ordu quruculuğumuz haqqında qəzet və ya jurnal məqaləsinin oxunuşundan və ya kiçik söhbətdən, hər hansı bir sualın qoyuluşundan başlamaq olar. Mövzunun müzakirəsinə daha çox dinləyici cəlb etmək üçün oxuculara veriləcək suallar diqqətlə düşünülməlidir. Söhbəti apararkən söhbət aparan şəxs mövzunun bütün məsələlərini əhatə etməli, aydın, yaddaqalan misallar gətirməli, inandırıcı sübutlar göstərməli, onu müasir dövrlə əlaqələndirməlidir. Müzakirənin vaxtında

yekunlaşdırılmasının, çıxış edənlərin hamısına diqqətlə yanaşılmasının, meydana çıxan suallar üzrə tədbir görülməsinin söhbətin səmərəli keçirilməsində böyük əhəmiyyəti vardır. Söhbətlər zamanı texniki vasitələrdən - video çəkilişlərdən, sənədli filmlərdən və internet səhifələrində olan məlumatlardan istifadə etmək məqsədəuyğundur.

Bu il həmçinin "Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunması"- nın işıqlandırılmasını əzmlə üzərinə götürən "Azərbaycan" qəzetinin də 100 ili tamam olur. Kitabxanaçı bu haqda oxuculara söhbət zamanı məlumat verə bilər.

**Kitabxana:** Bu il "*Azərbaycan"* qəzetinin nəşrinin ***100 ili*** tamam olur. Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan məşhur "Azərbaycan" qəzeti ölkəmizdə birinci rəsmi dövlət qəzeti kimi milli mətbuatımızın tarixində şərəfli yer tutur. "Azərbaycan" qəzeti 1918-ci il 15 sentyabr tarixində Gəncə şəhərində nəşrə başlamış, altıncı saydan etibarən qəzetin nəşri Bakıda davam etdirilmişdir. İki dildə çıxan "Azərbaycan" qəzetinin Azərbaycan dilində 443, rus dilində isə 438 sayı çap olunmuşdur. İlk sayları "Heyətiidarə", "Heyəti-təhririyyə" kimi "Redaksiya heyəti" mənasını ifadə edən məsul şəxslər qrupu tərəfindən çap edilən "Azərbaycan" qəzetinə müxtəlif vaxtlarda Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Xəlil İbrahim qəzetin rus dilində çap edilmiş variantına isə Səfi bəy Rüstəmbəyli baş redaktorluq etmişlər. "Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin mətbu salnaməsidir. Azərbaycan Xalq Cümhuriyyətinin istiqlal bəyannaməsi, Parlamentin işə başlaması və fəaliyyəti, Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunması, Bakı Dövlət Universitetinin yaradılması, dövlət müstəqilliyinin ildönümünün qeyd edilməsi, hətta hakimiyyətin bolşeviklərə təhvil verilməsi zərurəti və s.

kimi tarixi hadisələri bütün təfərrüatı ilə öyrənmək üçün "Azərbaycan" qəzeti mötəbər mənbə olmuşdur. "Azərbaycan"çılar mövzusundan asılı olmayaraq, haqqında söz açılan məsələlərə müstəqil dövlətin formalaşdırılması və möhkəmləndirilməsi mövqeyindən yanaşmış, yeni qurulmuş milli hökumətin ideyalarını və əməli addımlarını olduğu kimi xalqa çatdırmışdılar.

♦ Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları, 23 aylıq fəaliyyətinə rəhbərlik etmiş şəxsləri – Əlimərdan bəy Topçubaşovu, Məhəmməd Əmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Həsən bəy Ağayevi, Nəsib bəy Yusifbəylini, Səməd bəy Mehmandarovu, Əliağa Şıxlinskini və başqalarını böyük minnətdarlıq hissi ilə yad edirik. Onlar öz xalqı, milləti qarşısında böyük qəhrəmanlıq nümunələri göstəriblər. Bu gün ordumuzun belə mükəmməl olmasında onların əvəzsiz xidmətləri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının formalaşan gənc nəsilə tanıdılmasında kitabxanaçıların üzərinə bir sıra vəzifələr düşür.

*Kitabxanada "Azərbaycan Xalq Cümhuriyyətinin quruculari", "Azərbaycan Xalq Cümhuriyyəti yollarında" və* s. adlarda sərgi, mühazirə, biblioqrafik icmal və s. adlarda tədbirlər keçirmək olar.

♦ Geniş yayılmış şifahi təbliğat üsullarından biri olan **biblioqrafik icmallar** məqsəd və vəzifələrinə görə iki növdən: *elmi-köməkçi və tövsiyə icmallarından* ibarətdir. İstər elmi-köməkçi, istərsə də tövsiyə icmalları universal, sahəvi, mövzu və şəxsi xarakter daşıyır. Cümhuriyyət qurucularından hər hansı birinə həsr edilmiş, onların əsərlərini, həyat və yaradıcılıqlarına aid nəşrləri əhatə etməklə belə şəxsi icmal keçirmək olar.






















Kitab sərgisi ətrafında keçirilən icmallar daha maraqlı olur və daha çox oxucu toplayır. Həm də bu zaman oxucu kitabı görməklə yanaşı, onun qısa məzmunu ilə də tanış olur. Barəsində söhbət açılan kitablardan elə detallar və ya faktlar seçilməlidir ki, hər bir oxucu tezliklə həmin kitabı oxumağa tələssin.

♦ Uşaq kitabxanalarında və MKS-lərdə həm kiçikyaşlı məktəblilər, həm də yeniyetmə oxucuların iştirakı ilə AXC dövründə milli ordu qurucularından, Nuru Paşanın dəstəsindən və türk əsgərlərinin siyahısından ibarət ***kitabxana albomları*** tərtib etmək olar. Bu albomlarda onların anadan olduğu vaxtdan ömürlərinin sonuna qədərki bütün həyat və fəaliyyətini əks etdirən mətnlər, faktlar, rəqəmlər, foto şəkillər, rəsmlər xronoloji qaydada və məntiqi ardıcıllıqla verilir.

Məktəblilər hazırladıqları albomda olan lazımi materialları, məlumatları kitabxana şəraitində, kitabxanaçının birbaşa köməkliyi ilə toplayırlar. Albomun tərtibi modeli də kitabxanaçının iştirakı ilə hazırlanır. Məktəbli oxucu albomu hazırlamalı olduğu müddətdə həm müəllimlərin, həm də valideynlərin imkanlarından yararlana bilərlər

Bundan başqa uşaqlar Cümhuriyyət dövründə ordu qəhrəmanı Nuru Paşanın və ya qəhrəman türk və əsgərinin qəhrəmanlığına aid oxuduğu kitab və ya məqaləyə həsr edilmiş çəkdiyi şəkillərdən ibarət ***albom da*** hazırlaya bilərlər.

♦ Hər bir kitabxanaçı imkanlarından bacarıqla istifadə edərək *Milli Ordumuzun* yaranması, inkişafı və müasir dövrdə baş verən döyüş əməliyyatlarında göstərdiyi şücaət və qəhrəmanlıqları işıqlandırmalı, sənədli və bədii filmlərə baxış, *dəyirmi masa, disput* və s. tədbirlər keçirməklə Milli Ordu haqqında məlumatları təbliğ etməlidir. Nəzərə almaq lazımdır ki, hərbi hissələrdə keçirilən tədbirlər, bu sahədə görülən işlər Azərbaycan Ordusunun ruhunu gücləndirir, əhalidə orduya, Azərbaycan əsgərinə inam hisslərini möhkəmləndirir.

Yuxarı sinif şagirdlərinin və hərbi xidmətə çağırış vaxtı çatmış gənclərin iştirakı ilə *"Müharibə dövründə Vətənə və hərbi anda sadiqlik", "Azərbaycan Xalq Cümhuriyyəti*

*dövründən başlanan mübariz ordu quruculuğumuz", "Şəhidlər ölməz, Vətən bölünməz!"* və s. mövzularda ***dəyirmi masa, görüş*** təşkil olunması tövsiyə olunur.

♦ *Cümhuriyyət dövrünün tədqiqatçıları ilə görüş.* Bu görüşü tədqiqatçılar, tarixçilər, siyasi xadimlər, bu mövzuda yazan kitab müəllifləri ilə keçirmək olar. Görüşdə mövzu ilə bağlı olan əyani vasitələr – sənədlər, kitablar nümayiş etdirilə bilər. Görüş haqqında məlumat onun keçirildiyi vaxtdan xeyli əvvəl elan olunmalıdır ki, iştirakçıların görüşü keçiriləcək tədqiqatçının bu mövzuda kitabları, yazıları ilə tanış olmağa vaxtı çatsın.

♦ *Mərdlik dərsləri* – məqsəd cümhuriyyət dövrünün generallarının qəhrəmanlığını göstərmək, əhalini Ordumuz haqqında məlumatlandırmaq, uşaqlara vətənpərvərlik hissləri aşılamaqdır. Mərdlik dərsləri hərbi-tarixi hadisələr, bədii və sənədli əsərlər, filmlər əsasında qurulmalıdır. Tədbirdə Cümhuriyyət generalları, ilk ordu generalımız olmuş Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov haqqında yazılmış bədii və sənədli əsərlərdən parçalar, cümhuriyyət dövründə ordumuzun, türk əsgərlərinin şərəfinə yazılmış şeirlərdən, mahnılardan istifadə edilə bilər.

♦ *Ədəbiyyat xülasələri* – Xülasə zamanı tədbirin maraqlı və canlı keçməsinə diqqət yetirmək lazımdır. Məktəblilərlə AXC dövründə yaranmış ordu haqqında məlumatları söhbət şəklində qurduqda, maraqlı izahlar verildikdə və illüstrasiyalar, şəkillər nümayiş etdirildikdə onlar daha yaxşı mənimsəyirlər. Belə xülasəni *söhbət şəklində* və ya kitab sərgisi önündə hazırlasaq maraqlı olar. Xülasənin aparılmasında əsas məqsəd AXC-nin fəaliyyəti dövründə türk ordusu haqqında yazılmış məqalələrə, əsərlərə, kitablara diqqət çəkmək, oxucunu

məlumatlandırmaqdır. Xülasə bu qaydada keçirilir: giriş, əsas hissə və naticə.

Ordumumuzun köməkliyinə gələn türk əsgərlərinin köməyi ilə Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması ölkəmizdə ictimai həyatda olduğu kimi, mədəni, ədəbi həyatda canlanmaya təkan verdi. Türk ordusunun şanlı əsgərlərinə həsr edilmiş ədəbiyyatda mövzu və məzmunca yeni əsərlərin meydana gəlməsinə, rəvac verdi. Həmin il xalq uğrundakı mübarizələr xalqın əsrlərcə yaratdığı ədəbiyyatda istər folklorda, istərsə də yazılı bədii əsərlərdə əksini tapdı.

M. Hadi, H. Cavid, A. Şaiq, C. Cabbarlı, Ə. Cavad və digər sənətkarların çap etdirdikləri şeirlərdə zamanın hadisələrinə həqiqi vətəndaş-şair münasibəti əksini tapırdı. A.Şaiq, C.Cabbarlı və başqalarının bu dövrdə fərqli mövzularda yaratdıqları Bakının istiqlaliyyəti uğrunda mübarizəyə həsr edilən nəsr əsərləri ədəbiyyatımızın dəyərli nümunələrindən birinə çevrildi. C.Cabbarlı Bakının türk qoşunları tərəfindən azad edilməsinə həsr etdiyi "Bakı müharibəsi" pyesini, "Azərbaycan bayrağı" şeirini yazdı. "Bakı müharibəsi" pyesi o illərdə səhnəyə qoyuldu. Lakin sonralar əsərin çapı dayandı. Yalnız bu əsərin o vaxt tamaşası haqqında elan əlimizə gəlib çatıb.


ELAN

"Azərbaycan Dövlət Teatrosunda zilhiccənin 20-si, sentyabrın 16-da Bakı türk səhnəsi aktyorlarının iştirakı ilə, artist Abbas Mirzə Şərifzadənin təhti-idarəsində Azərbaycanımızın paytaxtı Bakı şəhərində mart hadiseyi-ələmiyyəsindən sonra düşmənlər əlində qalıb sonradan qəhrəman türk ordusu tərəfindən mühasirə edilib xilas olmasının bir illiyi münasibəti ilə gənc şair və mühərrirlərimizdən Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Bakı müharibəsi" draması mövqeyi-tamaşaya qoyulacaqdır (5 pərdədə, 7 şəkildə).

Həmin faciədə Bakı şəhərində mart-hadiseyi-ələmiyyəsindən sonra müsəlmanlara edilən zülm göstəriləcəkdir. Faciədə iştirak edəcəklər: Nuru Paşa, Mürsəl Paşa, Məhəmməd Tofiq bəy, Nuru Paşanın cəbhədə olması və Bakıya hücum planı yapılması göstəriləcəkdir. Bu faciə Bakının mart hadiseyi ələmiyyəsindən ta xilas olana qədər nə günlər gördüyü müfəssəl suratdə göstəriləcəkdir" (21).

*"Bəsirət" qəzeti, 1919, 13 sentyabr, N246*

♦ *İnformasiya günü* – kitabxana xidməti sistemində kompleks kitabxana-informasiya tədbirlərindən biri kimi kitabxanaya yeni daxil olan çap məhsulları haqqında oxucuları məlumatlandırmaq məqsədi daşıyır. İnformasiya gününə hazırlıq bir neçə mərhələdə olur. Əsas tədbirin mövzusunun

müəyyən edilməsidir. Bu mərhələnin ən başlıca addımlarından biri sərgi-baxış üçün mövzuya uyğun yeni daxil olan mühüm ədəbiyyatlar kitab və jurnallarda olan materialların seçilməsidir. Müəlliflərimizdən Cəfər Cabbarlının əsərlərinin milli ruhu Azərbaycan gəncliyinin maariflənməsində, ictimai şüurun oyanışında xüsusi rol oynayır. Həmin gün "***Əli və Nino***" filmini də nümayiş etdirmək olar. Əsərdəki hadisələr Rusiya inqilabı, müstəqil və demokratik Azərbaycanın qurulması və Qızıl Ordunun Bakını işğal etdiyi dövrləri əhatə edir.

♦ Bakının qurtuluşunun tariximizdəki yeri və əhəmiyyətinin təbliğində biblioqrafik resursların, bu resurslardan səmərəli istifadənin təşkilinin böyük əhəmiyyəti var. Bu sistemə kitabxanaların soraq-biblioqrafiya aparatı, biblioqrafik göstəricilər, tövsiyə xarakterli metodik vəsaitlər, qeyri-müstəqil nəşr formalı biblioqrafik mənbələr, elektron biblioqrafik mənbələr, biblioqrafik vəsaitlər və s. daxildir. Ənənəvi və elektron "Bakı uğrunda mübarizə" adlı kartoteka təkmilləşdirilməli əlavə rubrikalar açılmalı, AXC-nin fəaliyyətinə dair kitabxananın fondunda olan bazalara əlavə olaraq məlumatlar yerləşdirilməlidir. Fonda daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli məqalələrin biblioqrafik təsvirləri elektron kataloqun tərkibinə daxil edilməlidir. Biblioqrafik vəsaitlərlə yanaşı, ***tövsiyə xarakterli siyahılar, bukletlər, reklam xarakterli kiçik vərəqələr (flayer), daycestlər*** hazırlayıb oxuculara tövsiyə edilməsi təbliğat işinə kömək edə bilər.

♦ Bakının azad edilməsinin 100 illiyi münasibətilə hazırlanmış "Nuru Paşa – Bakının xilaskarı", "Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu", "Azadlıq və qurtuluş ordusu" və s. başlıqlar altında guşələr hazırlamaq olar. Bu guşələrdə Xalq Cümhuriyyət xadimləri və İslam ordusu

xadimlərinin adlarını yazıb göstərməklə, kitabxana istifadəçilərini onların adları ilə tanış edə bilərik. Xalq Cümhuriyyəti xadimlərinin, İslam Ordu xadimlərinin şəkilləri, haqqında deyilmiş fikirlərin yazılıb divardan asılması da məqsədəuyğun olardı.

♦ *Şeir müsabiqəsi* – Kitabxanada mövzu ilə bağlı şeir müsabiqələrinin təşkilinin də xüsusi rolu vardır. Belə tədbirlər böyük təhsil və tərbiyə əhəmiyyətli olub, poeziyaya sevgi oyadır, poetik zövqü formalaşdırır, ciddi mütaliəyə maraq yaradır. Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı kitabxanada **"Cümhuriyyət ədəbiyyatında İslam ordusu"** adlı şeir müsabiqəsinin təşkili olduqca əhəmiyyətli olar. Müsabiqənin hazırlanması prosesi ilk əvvəl kitabxanada şeir müsabiqəsinin başlaması haqqında elanın asılması ilə başlayır. Müəyyən müddət ərzində seçilən iştirakçılar arasında gün təyin edilib, seçim turu keçirilir. Sonda münsiflər heyəti intonasiyası ilə fərqlənən iştirakçıları mükafatlandırırlar. Müsabiqədə uşaqlara təqdim etmək üçün Əhməd Cavadın "Türk ordusuna", "Gəlmə", "İngilis", "Şəhidlərə", "Çırpınırdı qara dəniz", "Bismillah", "Ey əsgər", Məhəmməd Hadinin "Türkün nəğməsi", "Zəfəri – nəhayəyə doğru ...", Ümmügülsümün "Yolunu bəklədim!", "Bu yılkı mayısda", Abdulla Şaiqin "Neçin böylə gecikdin", "Yeni ay doğarkən", Əbdü Əfəndizadənin "Ümid", "Qafqaza dəvət", Salman Mümtazın "Öyün millət" şeirlərini təqdim edə bilərik. Türk ordusuna ərməğan olaraq yazılmış bu şeirlərdən müsabiqədə istifadə edə bilərik.

**Türk ordusuna**

Ey şanlı ölkənin şanlı ordusu.
Unutmam Qafqaza girdiyin günü!
Gəlirkən qovmaya Turandan Rusu,
Ayağını Qara dəniz öpdümü?

İlk atarkən əski bürcə addımı,
Qars qalası salam topu atdımı?
Sən yaparkən orda zəfər şənliyi
Məğlub düşmən qaşlarını çatdımı?

Çıxdığın gün Allah Əkbər dağına,
Dağıstan dağları qibtə eylədi
Baxdım Sarayıviran tağına
“Sən gəlirsən, şən oluram”- söylədi.

Gəldiyin gün Kürün axar – baxarı,
Əski günahlardan silkindi, çıxdı.
Eşidib Gümrüdə təkbir səsini,
Araz sevincindən dünyanı yıxdı.

**Əhməd Cavad**

## Ey Əsgər

Dağa, daşa sancağını öpdürüb,
Duman kimi bu dağları bürüdün!
Dənizlərə salam rəsmi yapdırıb,
Göylərdəki bulud kimi yürüdün!

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Baş əydi, bax, toplarının səsinə,
Yad ellərin yıldırımı, şimşəyi.
Quzğun kimi qurumağa başladı,
Səni görən cəlladların biləyi!..

**Əhməd Cavad**

Şanlı Türk əsgərlərinə aid digər müəlliflərin şeirləri ilə Nəsiman Yaqublunun müəllifi olduğu "***Bakının Qurtuluşu"***, ***"Qafqaz İslam ordusu Azərbaycanda"*** kitablarında tanış ola bilərsiniz.

♦ *Rəsm müsabiqəsi* – Kitabxanada mövzu üzrə keçiriləcək maraqlı tədbirlərdən biri də rəsm müsabiqəsidir. Yerləşdiyi ərazidəki məktəbdə rəssamlığa, memarlığa maraq göstərən şagirdlər müsabiqədə iştirak edə bilərlər. Sərgiyə *"Qafqaz İslam Ordusunun işğal etdiyi bölgələr"* adını verə bilərik.

♦ *Kitab müzakirəsi* – oxucular arasında bədii ədəbiyyatı təbliğ etməyin ən geniş yayılmış şifahi üsullarından biridir. Kitab müzakirələrində başlıca məqsəd müzakirə obyekti olan kitab haqqında oxucuların fikirlərini bilmək, onun nə dərəcədə maraqla oxunduğunu müəyyənləşdirməkdir. Oxucu fəallığının artmasına, bədii-estetik zövqlərin formalaşmasına, kitab üzərində müstəqil işləmək, oxuduqları çap əsərləri haqqında sərbəst fikir yürütmə bacarığının yaranmasına təsir göstərən kitab müzakirələri kitabxanada yer alan maraqlı tədbirlərdəndir. Tədbirə gənclər, ziyalılar, şagirdlər, tələbələr və başqa oxucular dəvət olunur. Müzakirədə Bakının Qurtuluşu, Qafqaz İslam Ordusunun Bakıya gəlməsini əks etdirən kitablardan istifadə edilir. Bu kitablardan Nəsiman Yaqublunun "Bakının Qurtuluşu" və ya "Qafqaz İslam Ordusu Azərbaycanda" kitablarının müzakirələrini keçirə bilərik. Müzakirə zamanı müəllifin özünü də dəvət etmək olar. Qafqaz İslam Ordusunun Azərbaycanda olmasını düzgün əks etdirən, "Qafqaz İslam Ordusu Azərbaycanda" kitabı əsasən tarixi sənədlər, yazılar, faktlar əsasında müəllif tərəfindən hazırlanıb, toplanmışdır.

## Ədəbiyyat siyahısı


### *Kitablar*

**Ağayev Y.** İstiqlal yürüşü-1918. - Bakı : Altun Kitab, 2009. - 416 s.

**Azərbaycan Xalq** Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı : Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı ; Nurlar NPM, 2008. 696 s.

**Əhməd D.** Bakının xilaskarı niyə öldürüldü : Nuru Killigil paşa haqqında // Fərqlilər. - Bakı : TeasPress, 2015. - S. 47-51.

**İbrahimov İ**. Azərbaycan : tarixdən səhifələr // Vətəndaş və tarix. - Bakı : Qanun, 2009. - S. 24-118.

**İbrahimov İ.** Nuru paşa // Vətəndaş və tarix. - Bakı : Qanun, 2009. - S. 53-65.

**Qoçu Nəcəfqulu** : bioqrafiya. - Bakı : [s. n.], 2008. - 104 s. : portr., foto.

**Şeydayev Ç.** Bakı və bakılılar. - Bakı : Şirvannəşr, 2008. - 284 s.

**Süleymanov M.** Nuri Paşa : sənədli oçerklər. - Bakı : Nurlar, 2008. - 216 s. : foto.

**Yaqublu N**. Bakının qurtuluşu : Bakının qurtuluşunun 90 illiyinə. - Bakı : Adiloğlu, 2008. - 256,[48] s.

### *Dövri mətbuatda*

**Abbaslı T.** 15 sentyabr 1918 - : Ümumxalq tale-tariximizdə daha bir "MİLLİ MƏN"lik doğulmuşumuz - "Bakı QURTULUŞU"muz!... // Mədəniyyət. - 2017. - 15 sentyabr. - № 72. - S. 11.

**Abdullayev M.** Bakının xilaskarı - Nuru paşa : Bakının işğaldan azad edilməsindən 99 il ötür // Xalq qəzeti. - 2017. - 15 sentyabr. - № 200. - S. 10.

**Bayramov V**. Bakıya yeridilən sovet ordu hissələri Azərbaycan xalqının azadlıq əzmini qıra bilmədi // Xalq qəzeti. - 2018. - 20 yanvar. - № 14. - S. 6.

**Əhmədova F.** Bakını paytaxt edən qurtuluş mücadiləsi : 15 sentyabr Bakının bolşevik-daşnak işğalından azad edilməsi günüdür // Azərbaycan : qəzet. - 2015. - 15 sentyabr. - № 201. - S. 7.

**Ənvər Paşanın** son məktubu : gerçəkdə məni səndən qoparıb buralara qədər sürükləyən Cənabi haqqın çiyinlərimə yüklədiyi müqəddəs bir vəzifədir // Ədəbiyyat qəzeti. - 2016. - 17 sentyabr. - № 34. - S. 1,3.

**İsmayılqızı X**. Türkiyə-Azərbaycan qardaşlığının zəfər günü : [15 sentyabr 1918-ci ildə böyük sərkərdə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik əsarətindən xilas etdiyi gündür] // İki sahil. – 2017. - 15 sentyabr. - № 166. - S. 16.

**Quliyev D.** Biz bura ölməyə gəldik, dönməyə yox... // Təhsil problemləri. - 2018. - 8-15 aprel. - № 27/28. - S. 2-3.

**Qurbanov A**. Milli qurtuluşa çağırış səsi - Məhməd Əmin Yurdaqul // Füyuzat. - 2018. - № 1. - S. 18-24.

**Mahmudov Y.** Yaqub Mahmudov: İstərdim ki, qardaşlıq abidəsi qoyulsun, orada Nuru paşa ilə Azərbaycan generalları yanaşı dayansınlar / söhbətləşdi: A.Turan // Xalq qəzeti. - 2018. - 27 may. - № 119. - S. 7.

**Məmmədli A.** Hürriyyətə aparan zəfər : 15 sentyabr Bakının bolşevik-daşnak işğalından azad edildiyi gündür // Respublika. - 2015. - 15 sentyabr. - № 201. - S. 8,10.

**Məmmədova R.** Seyidağa Axundzadənin Nuru Paşa və İslam Ordusunun Bakıda erməni silahlı dəstələrinə qarşı mübarizəsi haqqında xatirələri // Respublika. - 2015. - 3 aprel. - № 68. - S. 6.

**Sadıqov H.** Qurtuluş mücadiləsi : bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindəndir // Azərbaycan. - 15 sentyabr. - № 200. - S. 7.

**Bakının azad edilməsi: Azərbaycan Xalq Cümhuriyyəti dövrünün zirvəsi**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 45
Çapa imzalanmışdır: 11.07.2018
Tirajı:100
Pulsuz